PARADIGMA, No.3, 2025, səh.49-56
https://doi.org/10.30546/30015.2025.3.028

# TARİX DƏRSLİKLƏRİNDƏ ORTAQ TÜRK KİMLİYİ: AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏ TÜRK DÜNYASI PERSPEKTİVİ

**G.V. Xanizadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Üzeyir Hacıbəyli 68, Bakı, Azərbaycan
e-mail: xanizadegunay@gmail.com

**Xülasə.** Məqalədə Azərbaycan orta ümumtəhsil məktəblərində tədris olunan "Azərbaycan tarixi" və "Ümumi tarix" dərsliklərində ortaq türk kimliyinin təqdimat formaları təhlil edilmişdir. Araşdırma göstərir ki, mövzunun tədrisi şagirdlərdə milli və ortaq türk kimliyi şüurunun formalaşmasına, həmçinin ortaq tarixi yaddaşın mənimsənilməsinə şərait yaradır. Bununla yanaşı, təlim prosesi türk xalqları arasında əməkdaşlıq ideyalarının güclənməsinə də mühüm təsir göstərir.

**Açar sözlər:** Türk kimliyi, ümumtəhsil məktəbləri, ortaq tarix, əməkdaşlıq, təsir.

## Giriş

Ortaq türk kimliyi – müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarının ortaq tarixi, mədəniyyəti və mənəvi bağları əsasında formalaşmış milli kimlik konsepsiyasıdır. Tarixi inkişaf prosesində fərqli türk dövlətlərinin siyasi və mədəni təcrübələri bu kimliyin təşəkkülünə təsir göstərmiş, nəticədə bugünkü türk dünyası birliyinə ideoloji əsas yaradan mühüm amilə çevrilmişdir.

Azərbaycan ümumi orta təhsil məktəblərində ortaq türk kimliyinin tarix dərsliklərində necə təqdim olunması xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərdə erkən yaşlardan bu kimlik şüurunun formalaşdırılması onların soykökə bağlılıq hissini gücləndirməklə yanaşı, ortaq dəyərlərə sahib çıxmaq baxımından da mühüm rol oynayır.

Ədəbiyyat araşdırmaları göstərir ki, tədris vasitəsilə milli və ortaq kimlik şüurunun formalaşdırılması yalnız tarixi məlumatların ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin mədəni və ideoloji anlayışlarının inkişafına da təsir göstərir.

Bu araşdırmanın məqsədi Azərbaycan orta məktəb dərsliklərində ortaq türk kimliyinin təqdimat formalarını sistemli şəkildə təhlil etmək, tədris prosesinin şagirdlərin milli və ortaq türk kimliyi şüurunun formalaşmasına təsirini qiymətləndirməkdir. Metodoloji cəhətdən dərsliklərin siniflər üzrə struktur təhlili tətbiq edilmiş, həmçinin tədrisin ideoloji və mədəni aspektləri nəzərə alınmışdır. Bu yanaşma vasitəsilə həm tarix təliminin tədris keyfiyyəti, həm də şagirdlərdə milli və ortaq kimlik şüurunun inkişaf perspektivi elmi baxımdan daha aydın şəkildə müəyyənləşdirilir.

**Tədqiqat**

Azərbaycan ümumi orta məktəblərində "Azərbaycan tarixi" fənni şagirdlərə 5-ci sinifdən tədris olunur. Bu dərsliklərdə tarix fənninə giriş verilmiş, Azərbaycan tarixinin ən qədim dövrdən müasir dövrə qədər baş verən əsas hadisələri qısa və sistemli şəkildə təqdim olunmuşdur. Xüsusilə "Səlcuqlar və Azərbaycan" və "Kitabi-Dədə Qorqud" mövzuları ortaq türk kimliyinin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

- "Səlcuqlar və Azərbaycan" mövzusunda iki türk dövləti arasındakı siyasi və mədəni münasibətlər təhlil edilir. Səlcuqların Azərbaycan torpaqlarına gəlişi nəticəsində bu iki türk tayfası arasında mədəni və sosial inteqrasiya prosesi baş vermişdir. Bu proses nəticəsində türk dili Azərbaycan ərazisində yaşayan müxtəlif xalqalar üçün ortaq ünsiyyət vasitəsinə çevrilmişdir və bu, regionda ortaq mədəni və tarixi irsin inkişafına mühüm töhfə vermişdir.
- "Kitabi-Dədə Qorqud" dastanı isə ortaq türk kimliyinin formalaşmasında əhəmiyyətli yazılı mənbə rolunu oynayır. Dastan Oğuz türklərinin həyatını, onların qəhrəmanlıq əhvalatlarını, ailə və sosial dəyərlərə hörməti, eləcə də vətən sevgisini əks etdirir. Oğuz türkləri isə bu gün Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan və digər türk xalqlarının əcdadları hesab olunur. Dastan yalnız Oğuzlar üçün deyil, bütün türk xalqlarının mədəniyyətini, tarixini və dilini əks etdirən bir mədəni irs nümunəsidir. UNESCO tərəfindən tanınması isə əsərin dünya səviyyəsində qiymətləndirilməsinə və beynəlxalq mədəniyyət sahəsində önəminin möhkəmlənməsinə imkan yaratmışdır.

5-ci sinif tarix dərslikləri şagirdlərə həm milli tarixə aid bilikləri aşılayır, həm də ortaq türk kimliyinin erkən yaşlardan tədrisi üçün zəmin yaradır.

6-cı sinif Azərbaycan tarixi dərsliklərində ortaq türk kimliyi qədim türk tayfalarının Azərbaycan torpaqlarında məskən salması kontekstindən təqdim olunur. Məsələn, "Azərbaycan e.ə VII–IV yüzilliklərdə" mövzusunda kimmer, iskit və sak tayfalarının Azərbaycan ərazilərinə gəlişi, yerli əhali ilə qaynayıb qarışması və türk xalqlarının təşəkkülündəki rolu ətraflı şəkildə izah edilir. Bu proses qədim türk tayfalarının regionda sosial və mədəni inteqrasiyasını nümayiş etdirir və ortaq türk kimliyinin inkişafında mühüm əhəmiyyət daşıyır.

6-cı sinif ümumi tarix dərsliyində isə ortaq türk kimliyi daha geniş coğrafi və mədəni kontekstdə təqdim edilir. Dərslikdə türklərin Orta Asiyada yaşaması və bu ərazilərdə ilk türk dövlətlərinin yaranması ətraflı şəkildə işıqlandırılmışdır. "Tanrının döyüşçüləri" mövzusunda Böyük Türküstan torpaqları, türk kurqanları və Hunlar barədə məlumatlar verilir. Böyük Türküstan coğrafiyası Xinqan dağlarından Ural dağlarına, Xəzər dənizindən Sibirdən Çin, Tibet və İran yaylasına qədər uzanır. Bu torpaqların türklər üçün strateji və mədəni əhəmiyyəti böyük

olmuşdur. Böyük Türküstan əraziləri bir çox türk dövlətlərinin kökünün təşəkkülündə əsas mərkəz kimi qiymətləndirilir. Türklərin qədim mədəniyyəti, dili və ortaq tarixi yaddaşı bu regionlardan bütün türk dünyasına yayılmışdır. Əlavə olaraq, Altay dağlarının cənub ətəklərində yerləşən Pazırıq vadisində tapılan dünyanın ən qədim xalçası, türklərin qədim mədəni irsinin önəmli nümunələrindən biridir. Həmçinin, eramızdan əvvəl V əsrdə Qazaxıstan ərazisində aşkarlanmış İssık kurqanı üzərində Orxon yazılı gümüş qab tapılmışdır. Bu da türklərin qədim zamanlarda belə özlərinə məxsus əlifbanın olduğundan xəbər vermişdir. Bu mövzuda həmçinin Hunların tarixindən də geniş şəkildə bəhs olunmuşdur. Hunların türk tarixindəki yeri olduqca əhəmiyyətlidir. Hun dövləti tarixdə ilk böyük türk imperiyası hesab olunmuşdur. Hun hökmdarı Teoman Tanhu müxtəlif tayfaları bir bayraq altında birləşdirərək ortaq türk kimliyinin ilkin əsaslarını qoymuşdur. Ən qədim zamandan bu günə kimi Hun dövləti ortaq türk kimliyi baxımından ilk dövlətçilik modelinin yaradılması, mədəni dəyərlərin qorunması üçün nümunə olmuşdur.

7-ci sinif Azərbaycan tarixi dərsliklərində ortaq türk kimliyi əsasən Oğuz türklərinin fəaliyyəti kontekstində təqdim olunur. Dərslikdə Atabəylər**,** Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin yaranması, türk mənşəli olmaları və mərkəzləşdirilmiş hakimiyyət qurmaq səyləri ortaq türk kimliyinin möhkəmləndirilməsinə yönəlmiş addımlar kimi izah olunur. Bu dövlətlərin fəaliyyətləri, o cümlədən dövlətlərin idarəçilik strukturları, mədəni və siyasi təşəbbüsləri ortaq türk kimliyinin inkişafına töhfə vermişdir. Lakin Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin bəzi türk mənşəli dövlətlərlə apardıqları müharibələr və qarşıdurmalar ortaq birlik anlayışına mənfi təsir göstərən amillərdən biri kimi qeyd olunur.

7-ci sinif ümumi tarix dərsliklərində isə III–XVI yüzilliklərdə türk dövlətçiliyi və ortaq mədəniyyətin formalaşması mövzuları daha geniş və əhatəli şəkildə işıqlandırılır. Dərslikdə aşağıdakı mövzular ortaq türk kimliyi baxımından xüsusilə vurğulanır:

- “Xalqların böyük köçü. Avropa Hun və Ağ Hun dövlətləri”
- “Göytürk və Uyğur xaqanlıqları”
- “Avar, Xəzər və Bulqar dövlətləri”
- “Samani, Oğuz, Qaraxanlı, Qəznəli dövlətləri”
- “Böyük Səlcuq dövləti”
- “Osmanlı imperiyası”
- “Teymuri dövləti”

Bu dövrlərdə yaranan türk dövlətləri vasitəsilə ortaq türk kimliyi daha da inkişaf etmişdir. Xüsusilə, Göktürk dövləti türk tarixində xüsusi əhəmiyyət daşıyan hadisə kimi qiymətləndirilir.

Qeyd olunur ki, “Göktürklər türk adını ilk dəfə rəsmi dövlət adı olaraq qəbul etmişdirlər” [8, 14].

Göktürk dövləti kimi Səlcuqlu və Osmanlı dövlətlərinin də ortaq türk kimliyi baxımından xüsusi önəmi vardr. Səlcuqlu dövləti Orta Asiya və Anadolu ərazilərində türk birliyinin formalaşmasında mühüm rol oynamışdır. Səlcuqluların Malazgird qələbəsi nəticəsində türk təsir dairəsi genişlənmiş və türk mədəniyyəti daha geniş coğrafiyaya yayılmışdır. Osmanlı dövləti isə Səlcuqlu dövlətinin davamçısı olaraq ortaq türk kimliyinin formalaşmasında həlledici rol oynamışdır. Altı əsrdən çox hakimiyyətdə olan Osmanlı imperiyası türk dünyasının ən qüdrətli dövlətlərindən biri olmuş, hakimiyyətini Balkanlarda, Yaxın Şərqdə və digər ərazilərdə yayaraq türk dilinin və mədəniyyətinin sürətli şəkildə yayılmasına səbəb olmuşdur. Bunun nəticəsində ortaq türk kimliyi daha da güclənmiş, Osmanlı dövlətinin mədəni təsiri geniş ərazilərdə özünü göstərmişdir. Osmanlı imperiyası həm Avropa dövlətləri ilə diplomatik münasibətlərdə, həm də İslam dünyasında türk kimliyinin Səlcuqlardan sonra layiqli davamçısı olmuşdur.

8-ci sinif Azərbaycan tarixi dərsliklərində ortaq türk kimliyinin möhkəmlənməsinə töhfə verən iki əsas dövlət – Səfəvilər dövləti və Əfşarlar dövləti – diqqət mərkəzindədir. Hər iki dövlət vahid hakimiyyət quraraq öz tabeçiliyində olan tayfaları düzgün idarə etmiş və yaranmış bu birlik ortaq türk kimliyinin güclənməsi üçün əlverişli zəmin yaratmışdır. Lakin tarixdə ortaq türk birliyini pozan hadisələr də baş vermişdir. Məsələn, Səfəvilər və Osmanlılar arasında baş vermiş döyüşlər türk dünyasının təsir dairəsinin zəifləməsinə gətirib çıxarmışdır. Buna baxmayaraq, müəyyən müddətdən sonra sülh əldə olunmuş və bu iki dövlət arasında münasibətlər normallaşmışdır. Eyni zamanda, Əfşarlar dövləti də ortaq türk birliyinin möhkəmlənməsində mühüm rol oynamışdır.

8-ci sinif ümumi tarix dərsliklərində XVII–XVIII yüzilliklərdə ortaq türk birliyinə töhfə verən dövlətlərə geniş yer ayrılmışdır. Burada aşağıdakı mövzular xüsusi əhəmiyyət kəsb edir:

- “Qızılbaş dövlətləri”
- “Osmanlı imperiyası”
- “Volqaboyu və Ural, Sibir, Mərkəzi Asiyanın türk xalqları”
- “Qafqaz”

Dərslikdə təqdim olunan biliklər türklərin dünya mədəniyyətinə verdiyi töhfələri əks etdirir. Eyni zamanda, türk birliyini qorumağa və gücləndirməyə nail olmuş Osmanlı imperiyası bu dövrdə öz durğunluq mərhələsini yaşamışdır. Səfəvilər dövləti isə, xüsusilə Şah I Abbasın hakimiyyəti dövründə yenidən yüksəlişə keçmişdir, lakin Osmanlılarla olan münaqişələr

nəticəsində müəyyən zəifləmə mərhələsinə daxil olmuşdur. Mərkəzi Asiya türk xalqları isə Rusiyanın işğalçılıq siyasətinin ağır təsirlərinə məruz qalmışdır. Tarixi faktlar göstərir ki, hər nə qədər türklər güclü birlik yaratmış olsalar da, həm xarici müdaxilələr, həm də daxildə baş verən siyasi hadisələr nəticəsində zəifləmiş, əsas olan birliyi çox da qoruya bilməmişdirlər.

9-cu sinif Azərbaycan tarixi dərsliklərində Azərbaycan torpaqlarının XIX–XX əsrlərdə başına gələn hadisələr diqqət mərkəzindədir. Bu dövrün tədrisi ortaq milli oyanışın, milli dövlətlərin yaranması ideologiyalarının və türkçülük baxımından mühüm tarixi proseslərin şagirdlərə çatdırılması məqsədini daşıyır. Bu kontekstdə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövrü türklərin birliyi və ortaq kimliyinin formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edir. AXC-nin görkəmli dövlət xadimləri, o cümlədən Əli Bəy Hüseynzadə və Məhəmməd Əmin Rəsulzadə kimi ziyalılar xalq arasında türk kimliyinin və mənsubiyyətinin təbliğinə ciddi diqqət yetirmişdirlər. Eyni zamanda, türk dövlətlərinin çətin dövrlərdə bir-birilərinə dəstək verməsi ortaq türk birliyinin möhkəmlənməsinə güclü təsir göstərmişdir. Məsələn, Nuru Paşanın Azərbaycan xalqına göstərdiyi kömək, türk birliyinin güclü və faktiki olaraq fəaliyyət göstərdiyini nümayiş etdirmişdir. AXC-nin ideoloji və siyasi mirası yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün əhəmiyyətlidir. AXC dövründə qəbul edilən qərarlar və həyata keçirilən islahatlar türk dünyasında milli oyanışın və ortaq kimliyin təməlini qoymuş, gələcək nəsillər üçün nümunəvi bir model yaratmışdır.

9-cu sinif ümumi tarix dərsliklərində ortaq türk kimliyi əsasən Osmanlı imperiyasının son dövrləri və Türkiyə Cümhuriyyətinin yaranması kontekstində təqdim olunmuşdur. Dərslikdə türk tarixinə aid olan mövzular "Türk dünyası" başlığı altında sistemli şəkildə yer alır.

Bu dövrdə baş vermiş hadisələrə nəzər saldıqda Osmanlı və digər türk dövlətlərinin zəifləməyə doğru getdiyini müşahidə edə bilərik. Eyni zamanda, Rusiyanın türk xalqlarına qarşı apardığı işğal və zorakılıq siyasəti türk xalqları arasında əlaqələrin yaradılmasına mane olmuş, bunun nəticəsində ortaq türk birliyi zəifləməyə məruz qalmışdır.

Türklərin yenidən yüksəlişi isə Türkiyə Cümhuriyyətinin yaranması ilə əlaqələndirilir. Bu prosesdə Mustafa Kamal Paşanın xüsusi rolu olmuşdur. O, dövlətin güclənməsinin və türk birliyinin bərpasının əsas açarının iqtisadi inkişafda olduğunu vurğulamışdır.

Mustafa Kamal Atatürk Türkiyə İqtisad konqresində çıxışı zamanı belə söyləmişdir:

"Tarix xalqların yüksəliş və süqut səbəblərini axtararkən bir çox siyasi, hərbi və sosial səbəblər göstərir. Bütün bu səbəblərin ictimai hadisələrdə təsirli olduğu şübhəsizdir. Halbuki bir xalqın həyatı, yüksəlişi və enişi birbaşa məhz onun iqtisadiyyatı ilə bağlıdır. Tarixin və təcrübənin müəyyən etdiyi bu həqiqət milli həyatımızda, milli tariximizdə tam şəkildə özünü

göstərmişdir. Türk tarixi araşdırılarsa, bütün yüksəliş və eniş səbəblərinin, həqiqətən də, iqtisadiyyat məsələsindən başqa bir şey olmadığı başa düşüləcək. Tariximizdəki bütün uğurlar, zəfər və ya məğlubiyyətlər, fəlakətlərin hamısı baş verdikləri dövrlərdə iqtisadi vəziyyətimizlə bağlı və əlaqəlidir" [10, 81].

Bu baxımdan dərslik türk dünyasının son dövrdə yaşadığı zəifləmə və yenidən yüksəliş proseslərini tarixi, iqtisadi və siyasi kontekstlərdə şagirdlərə təqdim edir.

10-cu sinif dərsliklərində əsasən təkrara üstünlük verilmişdir. Burada təqdim olunan materiallar 6-cı sinifdən başlayaraq 9-cu sinifdə öyrədilən mövzuları əhatə edir. Bu yanaşma şagirdlərdə ortaq türk kimliyi, milli və ümumtürk birlik anlayışlarının möhkəmlənməsinə xidmət edir. Təkrarlanan mövzular vasitəsilə tarix təlimində ardıcıllıq təmin olunmuş, öncəki siniflərdə öyrənilən biliklər şagirdlərdə daha dərin və sistemli şəkildə mənimsədilmişdir.

11-ci sinif Azərbaycan tarixi dərsliklərində ortaq türk tarixi daha çox türk dövlətlərinin bir-birinə dəstəyini nümayiş etdirən hadisələr vasitəsilə təqdim olunmuşdur. Xüsusi diqqət "Vətən müharibəsi" mövzusuna yönəldilmişdir. Burada, 2-ci Qarabağ müharibəsi və müharibə zamanı qardaş Türkiyə dövlətindən alınan dəstək məsələləri əks olunmuşdur. Bu faktlar iki türk dövləti arasında münasibətlərin yüksək səviyyədə olduğunu göstərir və ortaq türk birliyinin möhkəmlənməsi baxımından əhəmiyyətli tarixi hadisə kimi qiymətləndirilir. Dərslikdə bu hadisələrə dair nümunə olaraq, Nobel mükafatçısı Əziz Sancarın fikirlərinə istinad edilmişdir: "Mənim üçün Qarabağ müharibəsi və zəfəri Türkiyənin qurtuluş müharibəsindən sonra türk dünyasının ən böyük zəfəridir" [11, 151].

Türk birliyinin möhkəmlənməsi baxımından əhəmiyyətli hadisələrdən biri 1993-cü ildə TÜRKSOY təşkilatının yaradılması olmuşdur. Bu təşkilat türk dövlətləri arasında mədəni əlaqələri gücləndirmiş və türk xalqları arasında "mədəniyyət körpüsü" rolunu oynamışdır. TÜRKSOY vasitəsilə həm ortaq keçmiş yaddaş qorunur, həm də gələcək nəsillərə ötürülür. 1996-cı ilin noyabrında, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev TÜRKSOY-un Bakıda keçirilən VIII toplantısında aşağıdakı fikirləri səsləndirmişdir:

"Mədəniyyətimizi, elmimizi, təhsilimizi, insanların mənəviyyatını daha da yüksəklərə qaldırmaq üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir. TÜRKSOY bu işi görür və indiyə qədər qısa müddətdə – üç il ərzində toplanmış təcrübə sübut edir ki, bu təşkilat bundan sonra da çox səmərəli fəaliyyət göstərə və ölkələrimiz, xalqlarımız üçün daha çox iş görə bilər. Bu da ondan ibarətdir ki, xalqlarımızın əlaqələrini bir-biri ilə daha da sıx bağlasın. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir" [6, 200].

11-ci sinif ümumi tarix dərsliklərində isə daha çox XIX-XX əsrlərdə baş vermiş dünya hadisələrinə, xüsusilə II Dünya Müharibəsi sonrası Türkiyə Cümhuriyyətində baş verən proseslərə yer verilmişdir. Bu dövrdəki hadisələr türk tarixi kontekstində şagirdlərə Türkiyə və digər türk dövlətlərinin inkişaf və dəyişikliklərini izah etmək üçün istifadə olunmuşdur.

Beləliklə, 11-ci sinif tarix dərslikləri şagirdlərdə ortaq türk kimliyi, milli həmrəylik və türk dövlətləri arasında əməkdaşlıq anlayışlarını konkret tarixi hadisələr üzərində formalaşdırır.

**Nəticə**

Azərbaycan orta məktəblərində tədris olunan tarix dərsliklərində ortaq türk kimliyinin təqdimatı həm milli, həm də ümumtürk birliyinin möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dərsliklərin məzmunu şagirdlərdə milli kimliyin daha dərindən qavranılmasına, türk xalqlarını birləşdirən ortaq tarixi və mədəniyyət elementlərinin mənimsənilməsinə imkan yaradır. Tarix təlimində ortaq kimlik ideyasının sistemli şəkildə öyrədilməsi şagirdlərdə həmrəylik, qardaşlıq və mədəni bağlılıq hisslərinin inkişafına töhfə verir. Eyni zamanda, bu yanaşma Azərbaycan dövlətinin türk dövlətləri ilə olan münasibətlərə verdiyi önəmi və türk dünyasında ortaq kimliyin gücləndirilməsinə yönəlmiş siyasətini vurğulayır.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi: 5-ci sinif üçün dərslik, (2024), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
2. Azərbaycan tarixi: 6-cı sinif üçün dərslik, (2025), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
3. Azərbaycan tarixi: 7-ci sinif üçün dərslik, (2023), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
4. Azərbaycan tarixi: 8-ci sinif üçün dərslik, (2023), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
5. Azərbaycan tarixi: 9-cu sinif üçün dərslik, (2024), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
6. Azərbaycan tarixi: 11-ci sinif üçün dərslik, (2023), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
7. Ümumi tarix: 6-cı sinif üçün dərslik, (2021), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.

8. Ümumi tarix: 7-ci sinif üçün dərslik. (2022), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
9. Ümumi tarix: 8-ci sinif üçün dərslik, (2023), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
10. Ümumi tarix: 9-cu sinif üçün dərslik, (2024), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.
11. Ümumi tarix: 11-ci sinif üçün dərslik, (2023), Bakı, Şərq-Qərb, Azərbaycan Elm və Təhsil Nazirliyi.

## COMMON TURKISH IDENTITY IN HISTORY TEXTBOOKS: THE PERSPECTIVE OF THE TURKIC WORLD IN THE AZERBAIJANI EDUCATION SYSTEM

**G.V. Khanizadeh**
Azerbaijan State Pedagogical University, Uzeyir Hajibeyli 68, Baku, Azerbaijan

**Abstract.** This article examines the ways in which the concept of common Turkic identity is presented in “Azerbaijani history” and “Common history” textbooks taught in secondary schools. The analysis reveals that the teaching of this topic contributes to the development of both national and common Turkic identity consciousness among students. Moreover, it facilitates the assimilation of shared historical memory and fosters a stronger sense of cooperation among Turkic peoples.

**Keywords:** Turkic identity, secondary schools, common history, cooperation, historical memory.